Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

"Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Nəşrdəki məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə tam məsuliyyəti Dövlət Vergi Xidməti daşıyır".

## Əlavə məlumat

Siz **taxes.gov.az** saytında vergilərlə bağlı yerləşdirilmiş materiallarla tanış ola, habelə **"195-1" Çağrı Mərkəzinin**, vergi orqanlarının əməkdaşları tərəfindən qanunvericiliyin tələbləri haqqında maarifləndirici məlumatlar əldə edə bilərsiniz. Siz  şikayət verməzdən əvvəl peşəkar mütəxəssislərlə məsləhətləşmək imkanından istifadə edə bilərsiniz.

195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az
**www.taxes.gov.az**




# Vergi Ombudsmanı

Azərbaycanda vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və onların pozulmuş hüquqlarının bərpası məqsədilə Vergi Ombudsmanı yaradılıb. **Vergi Ombudsmanının rolu vergi qərarlarının vergi ödəyiciləri üçün ədalətli və qanuni şəkildə qəbul olunmasını təmin etməkdən ibarətdir.**
Bu, vergi mübahisələrinin həlli prosesinin müxtəlif aspektlərini izah edən bir sıra lifletdən biridir.

## Vergi Ombudsmanının rolu nədən ibarətdir?

Vergi ödəyicilərinin vergi qanunvericiliyinə əsasən bir çox hüquqları və vəzifələri vardır, məsələn, onlara təsir edən vergi orqanlarının qərarlarından inzibati qaydada və ya məhkəməyə şikayət etmək hüququ. Vergi Ombudsmanı vergi ödəyicilərinin hüquqlarının qorunmasına kömək edir.

Vergi Ombudsmanı Dövlət Vergi Xidməti tərəfindən qəbul olunmuş bəzi qərarları təhlil edir, şikayətlər və maraqlı tərəflərin rəyləri əsasında vergi inzibatçılığının ədalətliliyinin artırılması üçün təkliflər verir. Bu təkliflər vergi ödəyicilərinin xeyrinə xidmət edir.

Vergi Ombudsmanının olması ən yaxşı beynəlxalq təcrübədir, çünki Vergi Ombudsmanı institutları vergi ödəyicilərinin şikayətləri ilə məşğul olmaq və vergi sistemini təkmilləşdirmək üçün zəruri olan ixtisaslaşmış təcrübəyə malikdir.

Azərbaycanda Vergi Ombudsmanı təyin olunduğu 2019-cu ildən indiyədək 110 müraciətin həllinə köməklik göstərib, vergi ödəyiciləri və sənaye qrupları ilə 56 görüş keçirib.

Vergi Ombudsmanının, əməliyyat-axtarış, təhqiqat və istintaq tədbirləri istisna edilməklə vergi orqanlarından və vergi ödəyicilərindən lazımi sənədləri və məlumatları almaq hüququ vardır.

O, iqtisadiyyat nazirinə Vergi Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilər.